Cəmiyyət

iki sahil

28 oktyabr / 2021

www.ikisahil.az / www.ikisahil.tv

# Tanınmış alim, pedaqoq, maarifçi və ictimai xadim

## 75 İLLİK YUBİLEYİNİ QEYD EDƏN FUAD MƏMMƏDOVUN MƏNALI HƏYAT YOLU GƏNC NƏSLƏ ÖRNƏKDİR



**İlin bir günü hər birimizin səbirsizliklə gözlədiyi tarix olur- doğum günümüz. Hər kəs bu tarixi özünəməxsus şəkildə qeyd etməyə çalışır, sanki ilin hesabatını verir. Bütün hallarda yaşanan hər gün, hər il bizlərə bəxş olunan ömür payımız olduğu üçün sevincli, kədərli, xoş, yaxud qüssəli olsa da, əzizdir, yaddaqalandır. İllərin, ayların, ən əsası günlərin izinə düşərək oktyabrın 28-də 75 illik yubileyini qeyd edəcək tanınmış alim, pedaqoq, maarifçi və ictimai xadim Fuad Teyyub oğlu Məmmədovun ömür kitabını vərəqləməyi özümə borc bildim.**

Fuad Məmmədov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, "Simurq" Beynəlxalq kulturoloji jurnalın (dünya mədəniyyəti və sivilizasiyasının tarix və nəzəriyyə məsələləri) təsisçisi və baş redaktoru, "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyasının vitse-prezidenti, Bakı şəhəri Yasamal rayonunun Ağsaqqallar Şurasının sədr müavini, Azərbaycanın Zadəganlar Məclisinin üzvüdür. Elə bu titullara diqqət yetirdikdə onun fəaliyyətinin çoxşaxəliliyi özünü aydın şəkildə büruzə verir.

Fuad müəllim mədəniyyət haqqında elmin - kulturologiyanın Azərbaycanda banisidir. 300-dən artıq monoqrafiyaların, dərs vəsaitlərinin, elmi konsepsiyaların, məqalələrin müəllifi və həmmüəllifidir. Onun kulturologiya və idarəçilik mədəniyyəti sahəsində beynəlxalq səviyyədə tanınmış əsas monoqrafiyaları "Kulturologiya. Nəzəriyyə və tarix məsələləri" (Bakı: "Əbilov, Zeynalov və oğulları", 2002. - 534s.), "Kulturologiya effektiv həyat fəaliyyətinə aparan yol kimi" (Bakı: "Əbilov, Zeynalov və oğulları", 2006. - 575s.), "İdarəçilik mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" (Bakı: "Apostrof", Çap evi, 2009, 2013-cü illər. - 775s.), "Kulturologiya, mədəniyyət, sivilizasiya" (Bakı: "OLnptk", 2015. - 296s.), "Simurq. 1990-2015" Azərbaycanın Mədəniyyət Assosiasiyasının tarixi" (Bakı: "OLnptk", 2015. - 388s), "Kulturologiya və insan inkişafı" (Bakı: "OLnptk", 2019. - 343s.), "Kulturologiya: XXI əsrin çağırışlarına cavablar" (Kazan: "İnnovasiya Texnologiyaları Mərkəzi", 2019, 382s.), "Dünyanı mədəniyyət xilas edəcək" (2021, Russiya, Novqorod DLU, 492 s.) və sairdir. Monoqrafiyalarından bəziləri Rusiya, ABŞ, Almaniya, Birləşmiş Krallıq, Yaponiya, Çin, Avstriya, Fransa, Macarıstan, Estoniya və digər ölkələrin dövlət kitabxanalarında, eləcə də BMT, UNESCO, Roma Klubu, ABŞ Konqresinin kitabxanalarında mövcuddur.

Fuad Məmmədovun rəhbərliyi altında Azərbaycanda və xarici ölkələrdə 300-dən artıq kulturoloji seminarlar, dəyirmi masalar, səyyar mühazirələr, məruzələr, treninqlər və master-klasslar, AzTV-də 200-dən artıq "İdrak" verilişləri, "ASAN xidmət"in personalı üçün etik mədəniyyət, xidmət mədəniyyəti və əmək mədəniyyəti üzrə bir çox təlimlər keçirilmişdir.

Dünya kulturologiya elmində ilk dəfə olaraq Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsindən istifadə etməklə kulturoloji metodologiyanı və elmi prinsipləri, "kulturoloji piramida" universal metodunu, "mədəni insan", "mədəniyyətin iki qanadı", "xoşbəxt ailə", "mədəniyyətin səmərəliliyi", "idarəçiliyin səmərəliliyi", "sosial-mədəni tərəqqinin səmərəliliyi", "humanitar təhlükəsizlik", "dövlətin rəqabət qabiliyyəti", "merito¬kratik tərbiyə və idarəetmə" kulturoloji formullarını işləyib hazırlamışdır. "Mədəniyyətin elmi tərifi", "mədəni inkişafın amilləri", "mədəniyyət tam sosial sistem kimi", "insan kapitalı inkişaf edən sistem kimi", "universal mədəni identiklik" kulturoloji anlayışlarını yaratmışdır.

"Azərbaycanda yeni, demokratik mədəniyyətin formalaşdırılmasına dair", "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının, Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin, Beynəlxalq Kulturologiya Mərkəzinin, "Simurq" Beynəlxalq kulturoloji jurnalın (dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi), "İnsan kapitalının inkişafı" mərkəzi, "Zəka" QHT Assosiasiyasının, "Qloballaşma şəraitində Azərbaycan Respublikasının davamlı və təhlükəsiz inkişafı", "Azərbaycan 2020: gələcəyə baxış" konsepsiyasına təkliflər, "Kulturologiya elmi imkanlarının dövlət və beynəlxalq idarəetmədə praktiki istifadəsi haqqında", "Qlobal kulturologiya üzrə UNESCO-nun şəbəkə kafedrası", "Azərbaycan Respublikasında kulturoloji islahatlar", "Yüksək mədəniyyətli azərbaycanlı" və digər kulturoloji konsepsiyalar, layihələr və modellərin müəllifidir.

F.Məmmədov Rusiya, ABŞ, Almaniya, Norveç, Fransa, Belçika, Cənubi Koreya, Tailand, Misir, Yunanıstan, Türkiyə, İran, Kosta-Rika, Hindistan, Rumıniya, Macarıstan, Qırğızıstan, Qazaxıstan və digər ölkələrdə beynəlxalq forumlarda, universitetlərdə, cəmiyyətlərdə və səfirliklərdə məruzələr, master-klasslar formasında çıxışlar etmiş, Azərbaycan elmini və mədəniyyətini layiqincə təmsil etmişdir. Fuad müəllimin 1991-ci ildə Kosta-Rikadakı çıxışlarının nəticəsində bu Mərkəzi Amerika ölkəsi Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. Avropa Şurasının mədəni siyasət üzrə ekspertlərinin məlumat bazasına daxil edilmiş (2000-ci il), BMT-də keçirilən Minillik üzrə beynəlxalq konfransın plenar iclasında çıxış




etmişdir (2000-ci il). Onun "İnsanların beynəlxalq mədəni eyniliyinin formalaşmasına köməklik haqqında" təklif edilmiş baza prinsipi UNESCO-nun 2016-cı il humanitar təhlükəsizlik üzrə Kazan Bəyannaməsinə daxil edilmişdir.

Azərbaycan və dünya kulturologiya elminə verdiyi töhfəyə görə professor Fuad Məmmədov Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü (2021), Qlobal Tədqiqatlar Beynəlxalq Akademiyasının (2018), Dünya Söz Akademiyasının (2018), "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyasının (2013), Pedaqoji və sosial elmlər Beynəlxalq Akademiyasının (2004), "İntellektual İnkişaf Problemləri" Beynəlxalq Elmlər Akademiyasının (2002) həqiqi üzvü seçilmişdir.

Fuad Məmmədov "Humay", "İntellekt", "Qızıl qələm" milli ictimai mükafatlarla, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin, Təhsil Nazirliyinin fəxri fərmanları, Ailə, Uşaq və Qadın problemləri üzrə Dövlət Komitəsinin diplomları, ABŞ Bioqrafiya İnstitutunun şərəf medalı, Misirin Təhsil Nazirliyinin qızıl medalı, "Beynəlxalq əməkdaşlığa töhfəyə görə" Moskva hökumətinin medalı, UNESCO-nun Sülh Mədəniyyəti İnstitutu və "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyasının "Roza mira" və "Miloserdiye" qızıl medalları, Ümumdünya Braxma Kumaris Universitetinin "Cansız ilahi ruh" ali mükafatı, "Dövrün yaradıcısı" Beynəlxalq ordeni, "Simurq" beynəlxalq medalı, AR Təhsil Nazirliyi və Mədəniyyət işçilərinin Respublika həmkarlar komitəsinin, Azərbaycan Respublikasının Ombudsmanının yaxa nişanları, "Mədəniyyət Səfiri" və "Sülh Səfiri" fəxri adları, bir sıra digər milli və beynəlxalq ictimai təşkilatların mükafatları ilə təltif olunmuşdur.

Bu təqdimat Fuad Məmmədovun uğurların əldə olunmasında, zirvələrin fəth edilməsində təqdim etdiyi modelin aydın mənzərəsini yaradır. Əsas olan budur ki, hədəf, məqsəd varsa, uğur da olacaq. Əmək varsa, onun məhsulu da olacaq. Uğurlarının davamlılığı fonunda Fuad müəllimi doğum günü münasibətilə təbrik edir, möhkəm cansağlığı arzulayırıq. Növbəti yubileyini təbrik etmək arzusu ilə

Yeganə Əliyeva,
*"İki sahil"*